**Azərbaycan Respublikası**
**Təhsil Nazirliyi**

**Azərbaycan Təhsil İşçiləri**
**Azad Həmkarlar İttifaqı**
**Respublika Komitəsi**

**Q Ə R A R**

***Bakı şəhəri***

**27 fevral 2015-ci il**
***№ 259***

***24 fevral 2015-ci il***
***№ 19/4***

*Ümumi təhsil müəssisələrinin müəllimləri arasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş şahmat yarışının keçirilməsi haqqında*

Azərbaycanda şahmat geniş yayılmış ənənəvi idman oyunlarından biridir və xalqımızın mədəniyyətində özünəməxsus yer tutur. İntellektual idman növü kimi şahmatın inkişafına ötən əsrin 70-ci illərindən etibarən respublikamızda böyük diqqət göstərilmişdir. Bu məqsədlə dövlət səviyyəsində qərarlar qəbul edilmiş, şəhər və rayonlarda şahmat məktəbləri, klubları açılmış və məktəblərdə şahmat fənni tədris edilməyə başlanmışdır. Görülən tədbirlər nəticəsində artıq ölkəmizdə şahmat oyununa maraq kütləvi xarakter almışdır.

Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş və onun xatirəsinə ehtiram əlaməti olaraq respublika ümumi təhsil müəssisələrinin müəllimləri arasında şahmat yarışının keçirilməsini məqsədəuyğun hesab edir və həmin yarışların yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədilə

**QƏRARA ALIR:**

1. Ümumi təhsil müəssisələrinin müəllimləri arasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş şahmat yarışı keçirilsin.
2. Respublikanın ümumi təhsil müəssisələrinin müəllimləri arasında keçiriləcək şahmat yarışı Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə tədbiri sayılsın.
3. Şahmat yarışı 2015-ci ilin fevral-aprel aylarında üç mərhələdə keçirilsin:

   *I mərhələ – ümumi təhsil müəssisələrində martın 10-dək;*

   *II mərhələ – şəhər və rayonlarda aprelin 10-dək;*

   *III mərhələ – respublika üzrə Bakı şəhərində aprel ayının son ongünlüyündə.*
4. Şahmat yarışının təşkili və keçirilməsi üzrə Təşkilat Komitəsinin (əlavə 1), Hakimlər kollegiyasının (əlavə 2) tərkibləri və Əsasnaməsi (əlavə 3) təsdiq edilsin.
5. Şəhər, rayon təhsil şöbələrinin müdirləri, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı şəhər və rayon komitələrinin sədrləri:

– bu qərarla təsdiq edilmiş Əsasnamənin şərtlərinə uyğun olaraq yarışların I və II mərhələlərinin keçirilməsini təmin etsinlər;

– şəhər və rayonlarda keçirilmiş II mərhələnin qalibləri haqqında məlumatı (soyadı, adı, atasının adı, ixtisası, iş yeri) 2015-cü ilin aprelin 15-dək Təşkilat Komitəsinə təqdim etsinlər;

– şəhər, rayon təhsil şöbələri III mərhələdə iştirak edəcək qaliblərin ezam olunmalarını təmin etsinlər;

– ATİAHİ şəhər və rayon komitələri yarışların II mərhələsinin qaliblərinin mükafatlandırılmasını və onların III mərhələdə iştirakı ilə bağlı məsələləri həll etsinlər.

6. Yarışın keçirilməsi ilə əlaqədar tərəflər öz üzərinə götürür:

**6.1. Təhsil Nazirliyi:**

– yarışda I, II və III yerlərə layiq görülənlərə diplomların verilməsini;

– yarışın III mərhələsinin keçirilməsi üçün yerin və şəraitin təmin edilməsini:

**6.2. Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi:**

– yarışın qaliblərinin mükafatlandırılmasını;

*I yer üçün* J *500 manat*

*II yer üçün* J *300 manat*

*III yer üçün* J *200 manat*

– 5 həvəsləndirici mükafat J (hər biri 100 manat);

– hakimlər kollegiyasının sədrinə 200 manat, üzvlərinə isə 100 manat məbləğində pul mükafatının verilməsini.

**7.** Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətinin təşkili şöbəsi və ATİAHİ Respublika Komitəsinin Mədəni-kütləvi və idman işləri şöbəsi bu qərardan irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsinlər.

**8.** Təhsil Nazirliyinin və ATİAHİ Respublika Komitəsinin müvafiq şöbələri qərar və əlavələrin «Azərbaycan müəllimi» və «Təhsil işçisi» qəzetlərində dərc edilməsini və İnternet səhifələrində yerləşdirilməsini təmin etsinlər.

**9.** Qərarın icrasına nəzarət nazir müavini F.Qurbanova və sədr müavini Ş.Əsgərova həvalə olunsun.

**Azərbaycan Respublikasının təhsil naziri**

**M.Cabbarov**

**Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri**

**S.Mehbalıyev**

Əlavə 1

**Respublika ümumi təhsil müəssisələrinin müəllimləri arasında keçiriləcək şahmat yarışının**

## TƏŞKİLAT KOMİTƏSİ

| | | |
|---|---|---|
| 1. | *Qurbanov Firudin İsa oğlu* | - *Təhsil nazirinin müavini, həmsədr* |
| 2. | *Əsgərov Şaiq Əhəd oğlu* | - *Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İt-tifaqı Respublika Komitəsi sədrinin müavini, həmsədr* |
| 3. | *Məmmədov Vasif Vaqif oğlu* | - *Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin müdir müavini, üzv* |
| 4. | *Nəzirov Rüstəm Məmməd oğlu* | - *Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin mədəni-kütləvi və idman işləri şöbəsinin müdiri, üzv* |
| 5. | *Xanaliyev Tofiq Sərxan oğlu* | - *«Gənclik» Tələbə-İdman Cəmiyyəti Respublika Şurasının sədri, üzv* |
| 6. | *Qarayev Arzu Cəmil oğlu* | - *Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin baş məsləhətçisi, üzv* |

Əlavə 2

**Respublika ümumi təhsil müəssisələrinin müəllimləri arasında keçiriləcək şahmat yarışının**

## HAKİMLƏR KOLLEGİYASI

| | | |
|---|---|---|
| 1. | *Nurullayev Nazim Akif oğlu* | - *Milli dərəcəli hakim, AHİTA-nın şahmat-dama klubunun direktoru, sədr* |
| 2. | *Məmmədzadə Nurəli Bünyamin oğlu* | - *Beynəlxalq dərəcəli hakim, Respublika Şahmat məktəbinin müəllimi, katib* |
| 3. | *Xanəlizadə Elmira Sərxan qızı* | - *Milli dərəcəli hakim, «Gənclik» TİC-nin məşqçi-müəllimi, üzv* |
| 4. | *Eyvazov Elşən Səfər oğlu* | - *Milli dərəcəli hakim, «Gənclik» TİC-nin şöbə müdiri, üzv* |
| 5. | *Mahmudov İslam Fərman oğlu* | - *I dərəcəli hakim, Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat Məktəbinin baş təlimatçısı, üzv* |

Əlavə 3

***ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MÜƏLLİMLƏRİ ARASINDA ŞAHMAT YARIŞININ KEÇİRİLMƏSİ HAQQINDA***

**Ə S A S N A M Ə**

## I. Yarışın keçirilməsinin əsaslandırılması və məqsədi

Şahmat üzrə yarışın keçirilməsinin əsas məqsədi respublikanın ümumi təhsil məktəblərinin müəllimləri arasında intellektual idman növü olan şahmat oyununu təbliğ etmək və geniş yaymaq, güclü şahmatçıları aşkar etmək, eyni zamanda müəllimlərin asudə vaxtlarını mənalı və səmərəli təşkil etməkdən ibarətdir.

## II. Yarışın şərtləri və keçirilmə qaydası

2.1. Yarışda respublikanın ümumi təhsil müəssisələrində işləyən müəllimlər iştirak edə bilərlər.

2.2. Şəhər və rayonlarda yarışın keçirilməsi üçün müvafiq Təşkilat Komitəsi yaradılır və smeta təsdiq olunur.

2.3. Yarış üç mərhələdə keçirilir:

*I mərhələ – mart ayının 10-dək, ümumi təhsil məktəblərində;*

*II mərhələ – aprel ayının 10-dək, şəhər və rayonlarda;*

*III mərhələ – aprel ayının son ongünlüyündə Bakı şəhərində.*

2.4. Üçüncü mərhələdə şəhər və rayonlarda yalnız I yeri tutmuş qaliblər iştirak edir. Bakı şəhəri üzrə isə 11 rayonun hər birindən I yeri tutanlar birbaşa III mərhələyə təqdim olunurlar.

2.5. Yarış Beynəlxalq Şahmat Federasiyasının (FİDE) qaydalarına uyğun olaraq keçirilir.

2.6. Oyun zamanı hər iştirakçıya 20 dəqiqə vaxt verilir.

2.7. Şəhər və rayon komitələrinin sədrləri ikinci mərhələnin qalibləri haqqında (soyadı, adı, atasının adı, ixtisası, iş yeri) 2015-ci ilin aprelin 15-dək Təşkilat Komitəsinə məlumat verirlər.

2.8. Yarışın üçüncü mərhələsi olimpiya sistemi ilə keçirilir (uduzan çıxır)

2.9. Yarışın üçüncü mərhələsini Hakimlər Kollegiyası keçirir. Hakimlərin qərarına etiraz olduqda bu məsələyə Təşkilat Komitəsində baxılır. Vaxtında verilməyən ərizəyə Təşkilat Komitəsində baxılmır (ərizə oyundan sonra bir saat ərzində verilə bilər).

## III. Qaliblərin mükafatlandırılması

1. Yarış qaliblərinin mükafatlandırılması qərarda göstərilən formada həyata keçirilir.